# NATO və Rusiyanın ali hərbi komandanlığının Bakı görüşləri sülh və sabitliyə töhfə verəcək

**Azərbaycan paytaxtının növbəti dəfə Rusiya Federasiyasını və NATO-nu təmsil edən yüksək rütbəli hərbçilərin görüş məkanına çevrilməsinin bir neçə mühüm səbəbi vardır. Bu səbəblərin bir qismi ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun gündən-günə artması, dünya ictimaiyyətinin Azərbaycandakı sabitliyi, əmin-amanlığı, hərtərəfli islahatların aparılmasını, ən başlıcası, demokratik abhavanın bərqərar edilməsini yüksək qiymətləndirməsi ilə bağlıdır.**

*Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib. Biz bunu yüksək qiymətləndiririk. Keçən il üç dəfə belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yəni, bu ənənə artıq yaşayır və düşünürəm ki, davam edəcək. Biz bunu bizə böyük etimad əlaməti kimi qiymətləndiririk.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Ekspertlərin fikrincə, Bakının növbəti dəfə qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsinin səbəblərindən biri də Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji, nəqliyyat dəhlizləri layihələri ilə bağlıdır. Bu fakt ölkəmizin beynəlxalq aləmdəki statusunu və mövqeyini daha da möhkəmləndirib. Heç şübhəsiz, Bakının belə mühüm görüşlərə evsahibliyi etməsi həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü xarici siyasətin nəticəsi, onun şəxsi nüfuzu, dövlətin regional və qlobal proseslərdə aktiv rol oynaması ilə bağlıdır.

Belə görüşlərin Bakıda keçirilməsinin səbəbləri kimi, tərəflərə üstünlük verən cəhətləri də vardır. Ekspertlərin fikrincə, görüşlərin Bakıda keçirilməsinin bir sıra üstünlükləri var. Təbii ki, tərəflər də həmin özəlliyə görə Azərbaycan paytaxtını münasib biliblər. Bu üstünlüklər hansılardır? Azərbaycanda başqa dövlətin qoşunu yoxdur. Bu baxımdan neytrallığını qoruyub. Azərbaycan Rusiyanın liderlik etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmadığından qarşı tərəf üçün Rusiyanın hərbi cəhətdən təsir dairəsinə daxil deyil. Azərbaycan NATO-ya üzv deyil və alyansın Azərbaycanla münasibəti daha çox əməkdaşlıq səviyyəsindədir. Cənubi Qafqazdakı qonşularla müqayisədə Azərbaycanın tutduğu bu mövqe isə Rusiyanı qane edir. Bu tədbirin bir sıra səbəblərdən keçmiş SSRİ-nin başqa respublikalarında da keçirilməsi mümkünsüzdür. Çünki onların ərazisində danışıqlar aparmaq müəyyən mənada NATO və ya Rusiya ərazisi sayıla bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 26-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovu qəbul etməsi zamanı da bu məqamlar gündəliyə gətirildi. Dövlət başçımız vurğuladı ki, belə görüşlərin keçirildiyi yer çox ölkələr ola bilərdi, lakin seçim Bakının üzərinə düşüb və artıq üçüncü ildir ki, bu ənənə davam edir. Xatırladaq ki, bu görüşlərin təməli 2017-ci ildə qoyulub. Prezidentin fikrincə, Bakının artıq beşinci dəfə bu görüşlər üçün seçilməsi o deməkdir ki, bu məkan nəticə verir.

Dövlət başçımızın həmin görüşdə səsləndirdiyi bir fikir mətbuat təmsilçilərinin daha böyük maraq və diqqətinə səbəb olmuşdur. Prezidentin "... hər bir görüş, zənnimcə, bütün dünyada ümid doğurur. Ona görə ki, təkcə bizim regionda deyil, həm də dünyada təhlükəsizlik və sülh sizin əldə etdiyiniz razılaşmalardan asılıdır. Buna görə biz, əlbəttə ki, bundan qürur duyuruq," – fikirlərinə münasibət bildirən ekspertlər belə düşünürlər ki, Azərbaycanın bu müzakirələrə evsahibliyi etməsilə təkcə dövlət başçısı deyil, hamımız fəxr etməliyik. Çünki bu addım həm də ölkələrimizin arasında böyük etimada əsaslanan münasibətlərin əlaməti kimi qəbul edilir.

Yeri gəlmişkən, dövlət başçımız rusiyalı qonağın diqqətinə çatdırdı ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Moskva səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi: "Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali "Dostluq" ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk".

Bundan başqa, Azərbaycan Prezidenti NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçi qəbul edərkən də bu görüşlərin ənənəvi xarakter almasından məmnunluq ifadə etmişdir. Birləşmiş Millətlər Təşkilatında təxminən iki yüz ölkə olduğunu, lakin müəyyənliyə, əməkdaşlığa, risklərin azalmasına və planetimizin daha təhlükəsiz olmasına gətirib çıxaran bu görüşlərin keçirilməsi yeri kimi Azərbaycanın seçilməsini yüksək qiymətləndirən dövlət başçımız ümidvar olduğunu bildirdi ki, əvvəlki, bugünkü və növbəti görüşlər sülh və sabitliyə töhfə verəcəkdir.

Dövlət başçımızın NATO-nun Hərbi Komitəsinin sədri ilə görüşündə bizim fəxr etməli olduğumuz başqa bir məqam da dilə gətirilmişdi. Belə ki, cənab Ser Stüart Piiç Azərbaycan Silahlı Qüvvələrinin NATO-ya dəstəyini yüksək qiymətləndirərək vurğuladı ki, Azərbaycan əsgərləri çox peşəkar və effektivdirlər. Həqiqətən, fəxr edilməli məqam idi. Doğrudur, biz Azərbaycan əsgərlərinin peşəkar və effektli olduğunu 2016-cı ilin aprelində görmüşdük. Ancaq bunu NATO rəsmisinin dilindən eşitmək daha xoş idi.

Yeri gəlmişkən, həmin görüşdə Prezident İlham Əliyev də bizim üçün iftixar mənbəyi olan bir məsələni qabartmışdı. Belə ki, Azərbaycanda dövlət xidmətlərinin göstərilməsini təmin edən "ASAN xidmət"in növbəti mərkəzlərindən biri Əfqanıstanda açılmışdır. Beləliklə, bu, vahid pəncərə sistemi çərçivəsində çox nadir dövlət xidmətləri mərkəzidir. Bu barədə danışan dövlət başçımız xatırlatdı ki, təhlükəsizlik və terrorla mübarizə əməliyyatları çox vacibdir, lakin ölkəyə iş yerləri, məşğulluq, sosial müdafiə, iqtisadi islahatlar lazımdır və biz bu məsələlərlə bağlı Əfqanıstan hökuməti ilə çox geniş iş aparırıq.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***